UOT 372.881.111.1

**Səbinə Vahid qızı Əlizadə**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
https://orcid.org/0009-0008-5456-2750

# İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRDƏ TƏLİMƏ KREATİV YANAŞMANIN FORMALAŞDIRILMASI

**Сабина Вахид гызы Ализаде**
*докторант по программе доктора философии*
*Бакинский Государственны Университета*

# ФОРМИРОВАНИЕ ТВОРЧЕСКОГО ПОДХОДА К ОБУЧЕНИЮ У УЧАЩИХСЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ АНГЛИЙСКОМУ ЯЗЫКУ

**Sabina Vahid Alizade**
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

# FORMATION OF CREATIVE APPROACH TO TRAINING IN STUDENTS IN THE PROCESS OF TEACHING ENGLISH LANGUAGE

**Xülasə.** Elmi məqalədə ingilis dilinin tədrisi zamanı təhsil alanlarda kreativliyin formalaşdırılması prosesi geniş şəkildə öz əksini tapmışdır. Təlim prosesində kreativ yanaşmanın sistemli şəkildə formalaşdırılmasına, ingilis dilinin tədrisi zamanı şagirdlərin təlim keyfiyyətinin yüksəldilməsinə dair nümunələr göstərilmişdir.
***Açar sözlər:*** *təlim, xarici dilin tədrisi, kreativlik, şagird, müəllim*

**Резюме**. В научной статье широко отражен процесс формирования творческих способностей учащихся в процессе обучения английскому языку. Показаны примеры системного формирования творческого подхода в учебном процессе и повышения качества образования учащихся при обучении английскому языку.
***Ключевые слова:*** *обучение, преподавание иностранного языка, творчество, ученик, учитель*

**Summary.** In the scientific article, the process of forming creativity in students during English language teaching has been widely reflected. Examples of the systematic formation of a creative approach in the training process and the improvement of the quality of education of students during the teaching of the English language were shown.
***Key words:*** *training, foreign language teaching, creativity, student, teacher*

Müasir dövr məktəblərimizdə yaradıcı düşünməyə qabil olan şəxslər yetişdirməyi mühüm vəzifə kimi qarşıya qoyur. Şagird şəxsiyyətinin formalaşdırılmasında yaradıcı fəaliyyətin rolu əvəzsizdir. Məktəb yaşı yaradıcılığın inkişaf etməyə başladığı dövrdür, hələ kiçik yaşlardan uşaqlar rəsm çəkir, mahnı oxuyur və nəğmələr bəstələyirlər. Hər bir uşağın özünəməxsus yaradıcılığı olur, lakin onun qabiliyyətləri müəllimlər tərəfindən üzə çıxarılmalı və inkişaf etdirilməlidir. Yaradıcılıq qabiliyyətlərinin inkişafı prosesində müəllimlərlə yanaşı valideynlərin də rolu böyük əhəmiyyət kəsb edir. Valideynlər də təhsil prosesində iştirak edirsə, onda məktəblilərin idrak fəallığı, motivasiyası, marağı artır.

2005-ci ildə mayın 19-da Norveçin Berqen şəhərində keçirilən konfransda ölkəmiz Bolonya prosesinə qoşuldu və beləliklə Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası başladı. Bu dövrdən bəri təhsil müəs-

sisələrinin qarşısında duran başlıca vəzifələrindən biri hərtərəfli inkişaf etmiş, ixtisas dili ingilis dili olan, bu dildə kommunikativ cəhətdən səriştəli və dildən kreativ qabiliyyətə malik olan pedaqoji kadrların hazırlanmasıdır. Təsadüfi deyildir ki, ingilis dilinin tədrisi prosesi ibtidai sinifdən başlayır, bununla da uşaqlara kiçik yaşlardan dil bacarıqları aşılanır.

Şagirdlərin davranış tərzinə təsir edən bir çox amillər vardır ki, bunlar öyrənmə prosesinə müsbət təsir göstərərək şagirdlərdə hər şeyə maraq və həvəs oyadır. Başlıca amillərdən biri motivasiyadır. Motivasiya şagirdlərin dərslərdə fəal iştirakına, daha kreativ, məhsuldar olmasına və yüksək keyfiyyətli öyrənmə bacarıqları nümayiş etdirməsinə imkan verən bir növ gücdür. Fəal dərsin mərhələlərindən birincisi olan motivasiyanın reallaşdırılması şagirdlərdə idrak fəallığı, kreativlik yaradır.

Pedaqoji ədəbiyyatlarda geniş təhlil olunan bu anlayışa hələ də vahid olaraq bir tərif verilməmişdir. Bəzi tədqiqatçılar kreativliyi innovasiya termini ilə eyniləşdirirlər. Bu anlayışları fərqləndirsək, görərik ki, innovasiya kreativliyin məhsulu hesab olunur. Kreativlik ixtira, yaratma və partlayışdır. İnnovasiyalar isə kreativ ideyaların istənilən sahədə uğurlu tətbiqidir. [1]

Kreativlik – hər hansısa həll edilməli olan məsələni orijinal və qeyri-adi, eyni zamanda, lazımi şəkildə həll etmək kimi səciyyələndirilə bilər. Bu anlayışı termin kimi ilk dəfə işlədən XVIII əsrin Polyak şairi Mateş Kazimirz Sarbiyevski olmuşdur.

Kreativliyin üstün cəhətlərindən biri birbaşa problemin həllinə yönəlməsidir. Buna görə də o bir sıra ifadələrlə - "müvafiqlik, orijinallıq və problemin həlli yolu" assosiasiya olunur. Costellonun fikrincə, kreativliyi "problem həlli" və "çərçivədən kənar" düşüncə tərzini əks etdirir kimi vurğulamışdır ki, "təlim pillə-pillə inkişaf edən, diferensial prosesdir və bu zaman səhvlərin olması da istisna deyil." [2]

Bir çox psixoloqlar öz araşdırmalarında XXI əsri kreativlik əsri kimi dəyərləndirirdilər. Lakin kreativliyə nail olmaq o qədər də asan proses deyildir. Şagirdlərdə kreativlik formalaşdırmaq üçün, ilk növbədə, problemli situasiya yaratmaq lazımdır. Bu uşaqları düşünməyə sövq edərək, onlarda yaradıcı və məntiqi təfəkkürü inkişaf etdirmiş olur. Bundan başqa, filmlərdən epizodlar, xəritələr, şəkil və illüstrasiyalar, dinləmələ, açar sözlərindən istifadə etməklə yaradılan motivasiyalar şagirdlərin fərziyyələrinin alınması məqsədi ilə həyata keçirilməklə yanaşı araşdırılacaq problemə həvəsin oyanması və yeni yanaşmaların yaranması üçün zəmin yaradır.

"Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd olunur ki, "Şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlər görüləcəkdir". Göründüyü kimi, ölkəmizin təhsil siyasətində təfəkkür, düşüncə, intellekt məktəbinin yaradılması prioritet istiqamətlərdən biridir. Müasir məktəbin dərsi də bu müqəddəs vəzifələrin icrasına çevriləcəkdir. Özünün yaradıcılıq imkanlarını axtaran müasir müəllim, ilk növbədə, tədqiqatçılığa başladığı fəaliyyətini dərsdəki yaradıcı fəaliyyəti ilə başa vuracaqdır. [3]

Müəllimlər şagirdlərdə təlim prosesində kreativliyə nail olmaq üçün təlimə maraq yaratmalı, onları həvəsləndirməlidirlər. Şagirdləri öyrənməyə motivasiya etmək müəllimin məsuliyyətinin bir hissəsidir ki, o, həmişə şagirdlərin səviyyəsinə müvafiq olaraq maraqlı, müxtəlif və uyğun mövzular tapmalı, onlara müəyyən vəzifələr verməklə rollar təyin etməli, təqdim olunan mövzunu mənimsəmələri üçün çoxlu imkanlar yaratmalı, çevik olmalı, müəyyən fərdi yanaşma nümayiş etdirməli və marağını saxlamaq üçün ehtiyacların təhlilini aparmalıdır. Bütün bunlar şagirdin kreativ fəaliyyətinə müsbət təsirini göstərir.

Kreativliyin müəyyən vaxt tələb etdiyini unutmaq olmaz və hər sahədə olduğu kimi bu prosesdə də effektli nəticəni hər zaman əldə etmək olmur. İlk öncə araşdırılmalar aparılmalı, bundan sonra fəaliyyət sahəsində məqsəd və bundan irəli gələn nəticələr dəqiq müəyyənləşdirilməlidir. Təhsil alanlarda aşağıdakı bacarıqların olması sayəsində təhsildə kreativliyi tətbiq etmək daha əlverişlidir:

- münaqişələri həll etmək bacarığı;
- problemli situasiyaları təşkil etmək bacarığı;
- problemli vəziyyətlərlə əlaqəli yeni alternativ fərziyyələri irəli sürmə bacarığı;
- yaradıcı tapşırıqları tərtib etmə bacarığı.

Kreativ yanaşma məhsullarının praktikaya tətbiq olunması nəticələrin səviyyəsinin yüksəlməsinə müstəsna töhfələr vermiş olur. Kreativliyin təmin edilməsi müəyyən prinsiplərə söykənir.

Kreativ dərsləri xarakterizə edən prinsiplər aşağıdakı kimi səciyyələndirmək olar:

- tapşırıqların "açıqlıq prinsipi" – tapşırıqlar açıq sual əsasında qurulmalıdır;
- idrakı mühitin yaradılma prinsipi – müxtəlif öyrədici və stimullaşdırıcı vəsaitlərin mövcud olması;
- idrakı fəaliyyətin təşkili prinsipi – uşaqların fəal sual verməsi üçün sağlam mühitin yaradılması;
- uşaqların yeni ideyaların irəli sürməsi prinsipi;
- yaradıcı mühitin təşkili üçün şəxsi nümunədən istifadə olunması prinsipi;
- təhlükəsiz psixoloji mühitin yaradılması prinsipi;
- uşaqlar tərəfindən irəli sürülən ideyalara hörmətlə yanaşma prinsipi.[4]

Sinif mühitində şagirdlərdə müəyyən yaradıcılıq qabiliyyəti yaratmaq müəllimə bağlıdır. Müəllimin dərs apardığı siniflərdə ingilis dili fənnini tədris etməsindən asılı olaraq kreativ yanaşması fərqli ola bilər. Siniflərdə tətbiq edilən hər hansı bir iş uşaqların yaşına müvafiq olmalıdır. Lakin aşağıdakı fikirlər toplusu müəllimə şagirdlərdə kreativliyi formalaşdırmaqda köməkçi ola bilər:

- ideya və məqsədləri vizuallaşdırmaq;
- şagirdlərin düşünməsi üçün problemli situasiyaların və sualların yaradılması;
- ilhamverici qabaqcıl təcrübələrin nümunə olaraq göstərilməsi;
- oxuyub - anlama mətnlərinin şagirdlərdə yeni fikirlərin yaranmasına sövq etməsi;
- multimedia təlim materiallarından istifadə etmək;
- bəzi vaxtlarda sinif mühitindən kənarda (məktəb həyətində, parkda, kitabxanada və s.) təlimin həyata keçirilməsi;
- şagirdləri tərif və mükafatlar ilə həvəsləndirərək onlarda təlimə maraq oyatmaq;
- İnteraktiv təlim metodlarından mütəmadi olaraq istifadə etmək və s.

Məktəbdə xarici dilin tədrisi təhsil, tərbiyə və inkişaf vəzifələrinin hərtərəfli həyata keçirilməsi məqsədini güdür. Təlim prosesində şagirdlər nitqin, dinləmənin, yazının əsaslarına, nitq fəaliyyətinin əsas növlərinə yiyələnirlər. Xarici dilin tədrisinə kreativ yanaşma bu əsasların mənimsənilməsini və təkmilləşdirilməsini təmin edir.

İngilis dili dərslərində müəllimin vəzifəsi şagirdlərdə dünyagörüşü formalaşdırmaq, həyata hazırlamaq, fəallıq yaratmaq, dərsin əvvəlində motivasiya verərək həvəsləndirmək, yeni təlim mühitində öz düşüncəsini göstərməyə qabillik qabiliyyətini təmin etməkdən ibarətdir. Xarici dilin tədrisində tapşırıqların uğurla yerinə yetirilməsi üçün kreativlik amili böyük əhəmiyyət kəsb edir. Buna görə də müəllimin rollu oyunları, yaradıcı layihələr, dramatizasiyalar, müsabiqələr, viktorinalar, yaradıcı laboratoriyalar yaratmaqla, şagirdlərdə xarici dildə qəzetlərə, regionşünaslıq üzrə albomlara maraq oyatmaqla, qiyabi dərnəklərə cəlb etməklə yaradıcı insan yetişdirməsi vacibdir.

Deyilənlərdən belə bir nəticə çıxartmaq olar ki, ingilis dilinin tədrisi zamanı təlim mühiti şagirdlərdə kreativliyin ortaya çıxarılıb formalaşmasına şərait yarada bilər. Peşəkar pedaqoqların sayəsində təhsil alanların əksəriyyətində kreativlik potensialının kəşfi, genişləndirilməsi, kultivasiya, inkişaf etdirilməsi, daha dərindən formalaşdırılması mümkündür.

**Problemin aktuallığı.** Müasir dövrdə hər bir sahədə gedən yeniləşmə təhsil sahəsinə də öz təsirini göstərir və bu prosesə ayaq uydurmaq üçün təhsil alanlarda kreativliyin formalaşdırılması əsas məqsəddir.

**Problemin elmi yeniliyi.** Kreativliyin formalaşdırılması prosesində şagirdlərin hər birində maraq və inkişafın yaranması, yeni bilik və bacarıqların aşkara çıxması, müəllimlərin müxtəlif üsullardan istifadə edərək şagirdlərdə tədqiqatçılığın inkişaf etdirilməsi və s. kimi amillərin araşdırılması, bu istiqamətdə müəyyən tövsiyələrin hazırlanması təqdim olunan problemin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə irəli sürülən təkliflər və nəticələr bu sahədə mövcud olan bir sıra vacib məsələlərin həlli üçün praktik əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**

1. Van de Ven A.H., Angle H.L. “An introduction to the Minnesota Innovation Research Program”. In A.H. Van de Ven, H.L. Angle & M.S. Pooke (eds.), Research on the management of innovation. New York: Harper & Row, 3-30, 1989.
2. Costello P.J.M. “Thinking Skills and Early Childhood Education”. London: David Fulton Publishers Ltd, 2000
3. http://www.anl.az/down/meqale/az_muellimi/2014/yanvar/346715.htm
4. http://tehsil-zaman.blogspot.com/2016/05/movzu-kreativ-dusunc-v-thsild-onun-rolu.html

**E-mail:** sebine.elizade.1996@bk.ru

**Rəyçilər:** *ped.elm.dok., prof.* **L.N. Qasımova**
*pdos.* **N.B. İmamverdiyeva**
**Redaksiyaya daxil olub:** 16.06.2023.